Oruc İbadlı

# Müalicə bitkiləri



## Çiriş

Bakı – 2005

Redaktorları: *A.Rüstəmli, N.Hüseynova*

**O.V.İbadlı.**

**Müalicə bitkiləri: Çiriş; Bakı, «Tural» NPM, 2005.**

*«Çiriş» dərman, qida və texniki bitki kimi əvəzolunmaz əhəmiyyət kəsb edir, insan orqanizmi üçün misilsiz imkanlara malikdir, mədə-bağırsaq xəstəliklərinin, eləcə də, sınıq, çıxıq və oynaq ağrılarının müalicəsində istifadə edilir. Xalq təbabətində qədimdən məlumdur.*

*Bu kitabçada çirişin bioloji xüsusiyyətləri, əkilməsi, becərilməsi, müxtəlif xəstəliklərin müalicəsində ondan istifadə edilməsi qaydaları və s. öz əksini tapmışdır.*

*Əsərdə istifadə olunan materiallar, Qarabağda Seyid Fatma adı ilə tanınan xalq müdrikinin söz boxçasının və müəllifin uzun illər Qafqazda apardığı səmərəli tədqiqatların nəticəsidir.*

*Kitabça geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.*

**B** *1906000000 / 104-2005*

© ***O.İbadlı – 2005***

# ÇİRİŞİN MÜALİCƏVİ SİRLƏRİ

*Yüzlərlə xəstəyə şəfa vermiş sevimli anam **Seyid Fatmanın** əziz xatirəsinə ithaf edirəm.*

***Müəllif***

**Çiriş** – *Eremurus Bieb.* – Asfodelinakimilər fəsiləsinə aid olub, Ön, Qərbi, Mərkəzi Asiyada 50, keçmiş ittifaqda 23, Qafqaz və Azərbaycanda 2 növü bitir. Bunlar Azərbaycan çirişi – ***E.azerbajdzhanicus Charkev.*** və Görkəmli çiriş – ***E.spectabilis Bieb.*** növüdür.

Çiriş sözü latın dilində "*Eremurus*" adlanır. Bu söz yunan dilində "*eromos*"-səhra, "*ura*" isə quyruq deməkdir. Sözün lüğəti mənası «səhra quyruğu»dur.

Çiriş cinsi əvvəllər Zanbaqkimilər fəsiləsinə aid idi. Son vaxtların tədqiqatçıları bitkinin Asfodelinakimilər fəsiləsinə daxil olduğunu müəyyən etmişlər.

Azərbaycan çirişi növünü görkəmli Ukraynalı alim S.S.Xarkeviç Qafqaza ekspedisiya zamanı, Azərbaycan florasında bitən bitkiləri də tədqiq edən zaman müəyyənləşdirmişdi. O, 1959-cu ilin may ayında Xaldan rayonu ətraflarından topladığı çirişin yeni növünü müəyyən etmiş və bu növü Azərbaycan çirişi adlandırmışdır. Sonralar 1975-ci illərdə tədqiqatlar zamanı biz bu növün Füzuli rayonunun Dövlətkarlı kəndinin 3 km-də yerləşən Dilağarda çalında da (dağında) bitdiyini müəyyən etdik. Hər 2 növ texniki dərman və qida bitkisi kimi geniş istifadə olunur.

Respublikamızda çiriş ən çox Naxçıvan MR-nın Ordubad, Şahbuz, Babək, Culfa, Sədərək, Şərur, Kəngərli rayonlarında, Ağstafa, Qazax, Xaldan, Göyçay, Füzuli, Xonaşen, Cəbrayıl, Lerik, Yardımlı və s. rayonların aşağı, orta dağ qurşaqlarında, gilli-daşlı torpaqlarda, ən çox qaratikan kolları ətrafında bitir.

Azərbaycan xalqı çiriş bitkisindən ~~hələ lap~~ qədimdən müxtəlif məqsədlər üçün istifadə etmişdir. Respublikamızın

İNV. № 22217

bir çox rayonlarında yerli əhali çirişdən tərəvəz bitkisi kimi istifadə edir. Bitki fevral-mart aylarında kütləvi vegetasiyaya başladığı vaxt, yəni yarpaqlar torpağın üzərində 6-15 sm hündürlüyündə olarkən toplanır. Bu vaxt çalışmaq lazımdır ki, bitki torpağın 3-4 sm dərinliyindən, kök boğazına yaxın yerdən, kök boğazını zədələməmək şərti ilə kəsilib toplansın. Yeni açan 6-10 ədəd yarpaq zər pərdə ilə örtülü olur (Şəkil 1).




**Şək. 1. Görkəmli çiriş vegetasiya vaxtı.**

Bu vaxtlar yarpaqlar selik və C vitamini ilə zəngin olur. Rozetşəkilli yarpaqlar zər pərdənin içərisindən xeyli artıq çıxanda onun qidalılıq keyfiyyəti aşağı olur. Toplanmış yarpaqlara bıçaq ilə toxunan kimi aralanır. Yarpaqlar duzlu suda pörtülərək acı suyu atılır, sonra soğanla yağda

qızardılır. Bundan başqa çirişdən dadlı kətə və qutab hazırlanır.

Kətə və qutab bişirmək üçün çirişə soğan, dağkeşnişi və quzuqulağı əlavə edilib doğranır. Doğranmış qarışığa azacıq duz qatıb adi qaydada kətə, yaxud qutab bişirirlər. Bişirilmiş kətə çox ləzzətlə yeyilir. Zövqə uyğun heç bir göyərti qatmadan təkcə çiriş ilə bişirilmiş kətə çox dadlı olmaqla, mədə və bağırsaq xəstəlikləri, xüsusən bağırsaq iltihabı xəstəliyi (kolit) zamanı çox xeyirlidir.

Çiriş bitkisindən keyfiyyətli çiriş yapışqanı hazırlanır. Hətta yaxşı hazırlanmış çiriş yapışqanından keçmişdə dərzilikdə, papaqçılıqda və çəkməçilikdə çox geniş istifadə edilib. Çiriş yapışqanından istifadə edən sənətkarların dediklərinə görə papağın dimdiyinə, pencəyin yaxalığına, çəkmələrin dabancıq və burun hissəsinə, kisə parçalara sürtülən çiriş əgər su dəyməsə 200-250 il öz möhkəmliyini saxlama qabiliyyətinə malik olur.

Ədəbiyyat məlumatlarına görə vaxtılə Göyçay rayonunun Qaraməryəm kəndində çiriş yapışqanı hazırlamaq üçün fabrik və çiriş üyütmək üçün dəyirman fəaliyyət göstərmişdir. Bunun üçün çirişin kökyumruları toplanıb təmizlənir və qurudulur. Qurudulmuş kökyumrusu üyüdülür. Bu qayda ilə hazırlanmış çiriş tozu su ilə qarışdırılıb yapışqan hazırlanır. Həmin yapışqandan müxtəlif məqsədlər üçün geniş istifadə etmək mümkündür. Bu yapışqan orqanizmə heç bir zərər vermir. Hazırda işlədilən və müxtəlif ölkələrdən alınan yapışqanlar, xüsusən də aseton tərkibli yapışqanlar insan orqanizmi üçün hədsiz dərəcədə zərərlidir.

Səriştəli iş adamları vəsait qoyub çiriş plantasiyaları yaradaraq, ondan çiriş tozu istehsal etsələr, Respublikanın yapışqana olan tələbatını ödəmiş olar və qoyduqları sərmayəni birə-beş qat artıra bilərlər.

Çiriş tozunun qarağacın qabığının dəmlənməsindən hazırlanmış dəm ilə qarışığı ən təhlükəli sınıqların, çıxıqların

müalicəsində əvəzolunmaz əhəmiyyətə malikdir. Sınıq, çıxıq xəstəliklərinin müalicəsi zamanı çox vaxt həkimlər xaş yeməyi məsləhət görürlər ki, sınmış orqanlarda, əzalarda bitişmə, müalicə tez başa çatsın. Topladığımız məlumatlar və apardığımız təcrübələr göstərmişdir ki, çıxıq və sınıqlı xəstələrin müalicəsi zamanı çiriş bitkisinin yarpaqlarından hazırlanmış buğlama, kətə, qutab və s. yeməklərdən istifadə etmək xəstəliyin hədsiz dərəcədə tez müalicə olmasına səbəb olur.

Çiriş tozunu təzə balla (beçə balı) birlikdə qaynadır və azacıq qatılaşana yaxın götürürlər. Hazırlanmış məlhəmdən (davacatdan) çıxıq və sınıqlarda, çiban, dolama tipli yaraların müalicəsində istifadə edirlər.

Çiriş bitkisindən «eremuran» adlı maddə alınmışdır ki, həmin maddə ilə hopdurulmuş polietilen örtük tərəvəzi 6 ay tər saxlamaq qabiliyyətinə malikdir.

Azərbaycan MEA Mərkəzi Nəbatat Bağında 1967-ci ildən geofit bitkilərin təcrübə sahəsində çiriş bitkisinin kolleksiyası yaradılmış və bitkinin bir sıra xüsusiyyətləri, becərilməsi, çoxaldılma qaydası, istifadə olunması və qorunması tədbirləri öyrənilmişdir.

## ÇİRİŞİN BOTANİKİ TƏSVİRİ

### **Azərbaycan çirişi** – *Eremurus azerbajdzhanicus Charkev.*

Çoxillik bitki olub yeraltı orqanı kökyumrusudur. Kökləri yoğunlaşmış iyşəkillidir. Bitkinin yaşından asılı olaraq yoğunlaşmış iyşəkilli köklərin sayı 6-12 ədəd olur. Onlar ətli-şirəli olub, içərisi ehtiyat qida maddəsi ilə zəngindir. Kökləri kök boğazına yaxın yerdən rozet (ulduz) formalı olub, əsasda yoğun, kənarlara doğru getdikcə nazikləşir və bir növ yerkökünü xatırladır. Kökyumrusunun boğazında kətanaoxşar köhnə yarpaqların izləri vardır. Yarpaqlarının uzunluğu 20-40 sm-ə çatır. Gövdəsi rozet

(ulduzaoxşar) yarpaqların içərisindən çıxır. Çiçək salxımı ilə birlikdə 125-140 sm-ə qədər olur (Şəkil 2).



**Şək. 2. Azərbaycan çirişi kolleksiya sahəsində çiçəkləmə vaxtı.**

Abşeron şəraitində bu növün vegetasiyası iqlim şəraitindən asılı olaraq fevralın birinci ongünlüyündə, qönçələrin əmələ gəlməsi aprelin əvvəlində, çiçəkləməsi aprelin üçüncü ongünlüyündə başlayır və 25 gün davam edir. Çiçəkləri dekorativ olmaqla suda 8-14 gün qalır. Çiçəklərindən yaraşıqlı gül dəstəsi düzəltmək mümkündür. Çiçək salxımında çiçəklərin sayı təbii şəraitə nisbətən mədəni əkin şəraitində daha çox olur.

Salxımın uzunluğu 25-35 sm olmaqla, üzərində 180-250-yə qədər açıq narıncı rəngli çiçəkləri olur. Gövdəsi hamar

olub, uzunluğu 125 sm-dən çox olur. Yarpaqları 6-12 ədəd olub, tünd-yaşıl, bəzən gümüşüyə çalan rəngdə olur. Uzunluğu 28-35 sm, eni 3,8-4 sm-dir.

Azərbaycan çirişi növündə yeraltı iyəbənzər ətli kökləri yaxşı inkişaf edir. Köklərin sayı bitkinin yaşından asılı olaraq 8-12 ədəd olub, uzunluğu 10-16 sm, diametri (ən yoğun yerdən) 5,2 sm, çəkisi 1200 qram olur.

Toxumları iyun ayının ortalarında yetişir. Toxumlar yetişən zaman salxım üzərində 152 toxum qutucuğu əmələ gəlir. Qutucuq şar şəklində olub, üzəri qırışlıdır. Tək-tək hallarda hamar olur. Qutucuğun hündürlüyü 0,1-1 sm, diametri 0,6-0,8 sm-dir. Bitkinin yerüstü hissəsi tam quruyana kimi qutucuq gövdə üzərində qalır. Bir qutucuqda 8 ədəd toxum olur. Toxumların forması nahamar, kənarları iti, rəngi alabəzəkdir. Bitkidə 1146 toxum yetişir. Toxumların 1000 ədədinin quru çəkisi 16,5 qramdır. Bitkinin illik vegetasiya müddəti 229 gündür.

## Görkəmli çiriş – *Eremurus spectabilis Bieb.*

Bu növ Azərbaycan növündən qabaq-1818-ci ildə müəyyən edilib. Azərbaycanın əksər rayonlarında bitir.

Çoxillik ot bitkisi olub, yeraltı orqanı ətli kökyumrusundan ibarətdir. Köklərinin sayı 6-10 ədəd olub, uzunluğu 8-14 sm, diametri 4,3 sm, çəkisi 1000 qramdır. Yarpaqları 6-10 ədəd olub, tünd-yaşıl rəngdə, uzunluğu 26-34 sm, eni 3,7-3,9 sm olur.

Abşeronda kultura şəraitində görkəmli çiriş növündə vegetasiya fevralın ikinci ongünlüyündə, qönçələrin əmələ gəlməsi aprelin başlanğıcında, çiçəkləmə aprelin üçüncü ongünlüyündə başlayır və 25 gün davam edir.

Çiçəkləri bəzək əhəmiyyətli olub özünəməxsus iyi vardır. Suda 8-10 gün qalır. Çiçəklərindən gül dəstəsi düzəltmək üçün istifadə etmək olar.

Çiçəkləri salxımşəkilli olub üzərində 180-ə qədər ağ rəngli çiçəkləri olur. Uzunluğu 25 sm-dir, bitkinin gövdəsi (çiçək oxu ilə birlikdə) 125 sm-dir (Şəkil 3).



**Şək. 3. Görkəmli çiriş kolleksiya sahəsində çiçəkləmə vaxtı.**

Toxumları iyun ayının birinci ongünlüyündə yetişir. Toxumlar yetişən vaxt çiçək oxu üzərində 142 toxum qutucuğu olur. Qutucuq şarşəkilli olub, baş tərəfdən yarılaraq açılır. Bitkinin yerüstü hissəsi tam quruyana qədər qutucuqlar gövdə üzərində qalır. Bir qutucuqda 8 toxum olur. Bir bitkidə 1136 toxum yetişir. Toxumların 1000 ədədinin quru çəkisi 16 qramdır. Bitkinin illik vegetasiya müddəti 227 gün davam edir.

**Çirişin becərilməsi** – Qulluğa bir o qədər tələbkar olmayan çirişin becərilməsi zəhmət tələb etmir. Ancaq yaxşı məhsul əldə etmək üçün torpağa bir az qulluq tələb olunur.

Yaxşı olar ki, torpaq yüngül qumsal olsun. Əkməzdən qabaq hər hektar torpağa əkinqabağı 120-150 kq fosfor, 80-120 kq kalium vermək lazımdır. Kalium və fosforun 50%-nin payızda şum altında, qalan 50%-nin isə vegetasiya müddətində yemləmə şəklində verilməsi məsləhətdir. Azot gübrəsinin 45%-ni torpağın əkinqabağı hazırlanması vaxtı, 25-35%-ni əkindən 20-25 gün sonra birinci yemləmə vaxtı, 35-45%-ni isə kütləvi çiçəkləmə başa çatdıqdan sonra vermək məsləhətdir.

Çiriş əkiləcək sahənin hazırlanmasına avqust ayında başlamaq lazımdır. Sahə bitki qalıqlarından, alaqdan, daş-kəsəkdən, zibil və tullantılardan təmizlənməli və sahədən kənara çıxarılmalıdır. Torpaq 25-30 sm dərinlikdə bellənib hazırlanmalıdır.

Çiriş generativ (toxumları) və vegetativ orqanları vasitəsilə çoxaldılır. Toxumlarla çoxaldılma zamanı bitki 5-7 ildən sonra çiçəkləyib toxum verir. Bu da təsərrüfat və istehsal üçün bir o qədər faydalı deyil. Yalnız seleksiyada yeni sort almaq məqsədilə toxumla çoxaldılmadan geniş istifadə edilir.

Çiriş bitkisi toxumlarla çoxaldıqda gec çiçək verməsinə baxmayaraq, ondan çoxsaylı əkin materialı əldə etmək mümkündür. Bu əkin materialından müxtəlif məqsədlər üçün istifadə etmək olar.

Toxumları payızda, oktyabr ayının 20-dən başlayaraq səpmək məsləhətdir. Toxumlar əvvəlcədən düzəldilmiş və şırımlar açılmış ləklərə səpilir. Bunun üçün şırımlara alt hissədə 1-2 sm dərinliyində bir az qidalı torpaq (1:1:1 nisbətində peyin, yarpaq çürüntüsü, yuyulmuş dəniz qumu) tökür, sonra toxumlar həmin şırımların içərisinə səpilir. Yaxşı aqrotexniki qulluq edildikdə cücərmə faizi 90-100% olur.

Vegetativ yolla çoxaldıldıqda ana bitkini üzərində 2 kök tumurcuğu olmaqla bölüb çoxaldırlar. Bu qayda ilə bir ana bitkidən 2-4 əkin materialı almaq mümkündür. Həmin əkin

materiallarını əkdikdə 2-3 ildən sonra çiçəkləyib toxum əmələ gətirir.

Abşeron şəraitində aparılmış təcrübələr nəticəsində müəyyən edilmişdir ki, çiriş bitkisi öz-özünə toxumla çoxala bilir və 3-5 ildə 1-2 km məsafəyə yayılır.

## Çirişlə müalicə qaydaları

Çirişin kökyumrusundan, kökündən, yarpağından və çiçəyindən lap qədimdən xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə olunmuşdur. Onun kökyumrusundan alınmış çiriş tozundan və yaxud unundan hazırlanmış məlhəmdən (təpitmədən) sınıq və çıxıqların çiban və dolama tipli yaraların müalicəsində istifadə olunur.

A.X.Rollovun 1908-ci ildə «Qafqazın yabanı bitkiləri, onların yayılması və istifadəsi qaydaları» adlı kitabında hələ o vaxt Zaqafqaziyada 5000 pud çiriş tədarük edildiyi göstərilir.

Qafqazın İpəkçilik Stansiyasında tədqiq edilmiş çiriş unu belə təsvir edilir: çiriş tozunun su ilə qarışığından qatı, bulanıq, qeyri - şəffaf olan yapışqan alınır. Bu yapışqanın tərkibində 16,37 % su, 29,14 % kül, 15 % kitrə (qummi, yapışqan), 20% petin maddəsi vardır. Ondan alınmış külün tərkibində isə 5,77% xlor, 4,49% maqnezium, 21,83 % əhəng, 2,54% kükürd anhidridi vardır.

## Sınıq və çıxıqların müalicəsi

Çiriş bitkisi illik vegetasiyanı başa vurduqda, yəni yerüstü hissəsi quruduqda (bu iyun ayında baş verir) onu qazıyıb çıxarır, köklərini yarpaqdan, torpaqdan təmizləyib qurudurlar. Sonra həvəngdəstədə, xırda dəyirmanda və ya kofe üyüdəndə üyüdürlər. Çirişin üyüdülmüş unundan 2 xörək qaşığı götürür, üzərinə bir xörək qaşığı arpa unu əlavə

edib, həmin qarışığı yumurta ağı ilə qarışdırıb məlhəm hazırlayırlar. Məlhəm nə çox duru, nə də çox qatı olmalıdır. Məlhəmin üzərinə bir az kərə yağı sürtüb tənzifin üzərinə qoyur, qol, dirsək, ayaq oynaqlarında əmələ gəlmiş çıxıq və çatların üzərinə qoyurlar. Yaxşı olar ki, məlhəmi qoymamışdan qabaq xəstə nahiyənin üzəri pambığa hopdurulmuş spirtlə yaxşı-yaxşı silinsin. Sarğını 3 gündən bir dəyişmək lazımdır. Bu qaydalara əməl edilsə, 10-15 gündən sonra ağrılar tam keçib gedər.

Çiriş unundan (tozundan) 3 xörək qaşığı götürüb (sınığın ölçüsündən asılı olaraq az və ya çox da götürmək olar), qarağac qabığının suda tünd dəmindən (qabığı xırda-xırda doğrayıb adi çay kimi dəmləyir, 2 stəkan suya 4 xörək qaşığı qabıq əlavə edilir) təpitmə hazırlayırlar. Təpitmə yuxadan bir az qalın, yəni fətir qalınlığında olmalıdır. Sınıq yer təmiz spirtlə silinib təmizlənir. Hazırlanmış təpitməni (məlhəmi) ağ çit parçaya yaxır, üzərinə bir balaca yumurta ağı çəkirlər. Şəriştəli, təcrübəli sınıqçı sınmış yerləri qaydaya salır. Hazırlanmış məlhəmi sınığın üzərinə qoyur. Sonra sınıqdan asılı olaraq, həmin hissəni taxta parçası, iri qarğını iki yerə bölüb ondan hazırlanmış xüsusi alətlərlə sarıyırlar. Bütün əməliyyat təcrübəli türkəçarəçi loğmanın əli ilə aparılsa, həmin hazırlanmış davacatın əvəzi olmaz. Dəvədən, atdan, ulaqdan yıxılanlar, müxtəlif qəzalar zamanı sınıq alanlar bu üsuldan faydalana bilərlər.

Davacat düzgün hazırlanmalı, sarğı çox səliqəli aparılmalıdır. Sarğı 3 gündən bir dəyişdirilməlidir. Yaxşı olar ki, müalicə ərəfəsində çiriş yarpaqlarından kətə bişirilsin və gündə iki kətə yeyilsin. Bu sınıqların birləşməsini daha da sürətləndirir.

**Naxırçı Məhəmmədin sirri** – Füzuli rayonunun Dövlətkarlı kəndinin mal-qarasını otaran, «keçəl» ləqəbli bir Məhəmməd kişi vardı. Allah ona rəhmət eləsin. Bizim ailəyə yaxın idi. Bilirdi ki, mən dərman bitkiləri ilə maraqlanıram.

Mən hələ uşaq ikən o, kefinin yaxşı vaxtı mənə bir sirr açmış və tapşırmışdı ki, bunu bir yerdə desən hər ikimiz əlli-ayaqlı gedərik. Onu da deyim ki, Məhəmməd kişi cavan vaxtlarında babamgilin mehtəri və naxırçısı olmuşdu. «Ay Oruc, bunlar sənə lazım olar deyə - deyirəm. Cavan vaxtlarımda mal-qaranı örüşdə otarırdım. Axşamüstü sürünü kəndə gətirməyə hazırlaşırdım, bir də gördüm üstümə 3 atlı şığıdı, başıma kisə keçirib, əl-qolumu bağlayıb ata mindirdilər. Xeyli sonra meşənin dərinliyində bir kahada düşürtdülər. Əl-qolumu açıb kisəni başımdan çıxardılar. Diqqətlə baxdım, üçü də saqqallı idi. Birini tanıdım, bizim kənddən idi. Eşitmişdilər ki, seyidlərin yanında işləyəndə bir az türkəçarə öyrənmişəm, sınıq-çıxıqdan başım çıxır. Məni bərk-bərk hədələdilər, dedilər ki, bu işi bir yerdə danışsan, səni və ailəni məhv edəcəyik. Şərt kəsəndən sonra qaçaqlar (o vaxtlar Sovet hökumətinə qarşı çıxanlar) mənə kahada zarıyan xəstəni göstərdilər. Yoxladım, gördüm ombadan aşağı bud sümüyü sınıb. Müalicəni əvvəl boynuma almadım. Məni bərk əzişdirdilər. Qorxumdan boynuma aldım və dedim ki, müalicədən sonra məni sağ-salamat buraxsınlar. Səhəri onlara çiriş unu, tənzif, arpa unu, yastı ağac, yumurta və camış yağı, yoğun qarğı, yastılaşmış formalı bir neçə çəkil (tut) ağacı və s. gətirməyi tapşırdım. Elə axşam hər şey hazır idi. Müalicəyə başladım. Düz 15 gün məni orada həbsdə saxladılar. İki həftə keçmiş yoxladım, gördüm bitişmə düz və sürətlə keçir. 21 gündən sonra sarğını açıb yoxladım və gördüm ki, xəstə ayağını yerə tam basa bilir. Axırıncı sarğını edib qurtardım. Yalvardım ki, daha yaxşıdır, məni buraxın gedim, arvad-uşaq indi dəli olub, 21 gündür ki, evimdən-eşiyimdən xəbərsizəm. Üstəlik kəndin 100-dən çox heyvanının hara getdiyindən xəbərim yoxdur. Dedilər, arxayın ol, mal-qara hamısı gedib öz sahiblərini tapıb. Xəstə tam sağalandan sonra məni sağ-salamat buraxdılar».

Biz çiriş haqqında bir neçə yazı yazmışıq, amma Məhəmməd kişinin bu sirrini açmamışıq. Amma indi vaxtı və

məqamı yetişib deyə, düz 55 il sonra mən bu sirri açası oldum.

## *İrin, dolama, çiban tipli yaraların müalicəsi*

Bir ədəd çirişin kökünü götürüb yaxşı-yaxşı təmizləyir, qurudur, sonra onu üyüdürlər. Çiriş tozundan 100 qram götürüb 100 qram təmiz balla qarışdırıb vam odun üzərində qaynadırlar. Azacıq soyuduqdan sonra davacatın üzərinə 30 qram əzvay şirəsi qatırlar. Bu qayda ilə hazırlanmış davacatı məlhəm və ya təpitmə şəklində dolamanın, irinləmək istəyən hovlanmış kor çiban tipli yaraların müalicəsində istifadə etmək olar.

Çirişin qurudulmuş toxumları əziləmək toz halına salınır. Ondan bir xörək qaşığı götürüb balla qarışdırıb qaynadır, azacıq qatılaşana yaxın götürürlər. Təmiz tənzifin üzərinə yaxıb irinli yaraların, kəsiklərin, cızılmaların və s. ağrılı yaraların üzərinə qoyduqda tezliklə sağalır.

## *Mədə-bağırsaq xəstəlikləri*

Mədə-bağırsaq, qarayara, bağırsaq keçməzliyi zamanı çirişin xüsusi müalicəvi əhəmiyyəti vardır. Çirişin tər yarpaqlarından hazırlanmış buğlama, sıyıq, kətə, qutab və s. xörəklər orqanizmin müxtəlif vitaminlərlə təmin edilməsi və möhkəmləndirilməsi üçün daha çox faydalıdır.

Təzə-tər yarpaqları çoxlu miqdarda seliklə zəngindir. Bu selik isə bağırsaq divarı xovlarının yumşaldılmasında çox əhəmiyyətlidir.

Çiriş vegetasiyaya başlayanda, yəni yarpaqları torpağın üzərində 6-15 sm uzunluğunda olanda toplanır (1-ci şəklə bax). Toplanarkən torpağın 3-4 sm dərinliyindən, kökboğazına yaxın yerdən çəpinə kəsilir. Təzə çıxan yarpaqlar seliklə zəngindir. Ona görə onu çəpinə və torpağın altında kəsmək lazımdır ki, kəsilmiş yerə torpaq avtomatik

olaraq tökülsün. Əks təqdirdə çirişin köklərindən olan selikli şirə, ehtiyat qida maddəsi kəsik yerdən axıb bitkini zəiflədər və nəticədə bitki gücdən düşər, qidalanması zəifləyər və çürüyüb tələf olar. Bu qaydalara əməl etsəniz sahələrinizdə heç vaxt çirişin kökü kəsilməz və siz ondan daim istifadə edərsiniz.

Toplanmış yarpaqlar xırda-xırda doğranır, duzlu suda pörtülüb acı suyu alınır və çıxarılır, sonra yağda soğanla qızardılır. Ehtiyac duysanız üzərinə bir ədəd yumurta da vura bilərsiniz. Hazırlanmış bu yemək dadlı olmaqla, mədə-bağırsaq xəstəlikləri olanlara çox kömək edir. Eyni zamanda orqanizmi gümrah edir.

Toplanmış çiriş yarpaqları duzlu suda pörtülür, acı suyu çıxarılır. Qazana aşağı hissədən bir qat çiriş düzülür, sonra üzərinə düyü, alça və ya gavalı turşusu əlavə edilir. Daha sonra xırda doğranmış soğan düzülür. Onların üzərinə bir stəkan ılıq su tökülür. Vam odun üzərinə qoyulur. Yemək qaynara düşəndən 15 dəqiqə sonra üzərinə 2 xörək qaşığı yağ əlavə etmək lazımdır. Sonra bir qaşıq götürüb dadına baxırsınız. Tam bişibsə götürmək məsləhətdir. Bu qayda ilə hazırlanmış buğlama və sıyıq yazqabağı vitamin qıtlığından əziyyət çəkən orqanizmi vitaminlərlə qidalandırır, həmçinin qida borusu, mədə və bağırsağın divarlarını yumşaldır.

Heç vaxt yadımdan çıxmaz. Müharibədən sonrakı 1946-1952-ci illərdə çox kasıbçılıq və qıtlıq idi. İnsanlar əllərinə nə gəldi yeyirdilər. Vələmir, arpa, jmıx (mal yemi) və s. onların əlacsızlıqdan yedikləri qidalardan idi. O vaxtlar bizim kəndin əhalisini aclıqdan xilas edən bitkilərdən ən vacibi çiriş oldu. İnsanlar ondan çox faydalandılar. Hətta kəndimizdə Məhəmməd adlı bir tacir var idi. Bakı-Füzuli-İrəvan marşrutu üzrə alver edirdi. Oğlu Eldar bizim kəndin ətraflarından 500-1000 kq-larla çiriş tədarük edər və atası Məhəmməd onu kisələrə yığıb İrəvanda çox baha satar, əvəzində kəndə tapılmayan ərzaq, şirniyyat, xüsusən Naxçıvandan daş duz alıb gətirərdi. Kəndin əhalisinin bu

duza çox ehtiyacı var idi. Onu insanlar istifadə etməklə yanaşı, mal-qaraya yalatmaq üçün tövlənin qabağına qoyardılar.

## *Çiriş unundan soyuducu*

Hələ soyuducunun adı bəlli olmayanda insanlar ərzağın xarab olmaması, suyun sərin qalması üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Suyu kil və kərpic materialından hazırlanmış cürdək, bardaqlara töküb torpağa basdırar, 3-5 metr quyu qazıb xarab olma təhlükəsi olan ərzaqları quyuya sallayardılar. Qafqaz xalqları çirişdən də qab düzəldər və o qabın içərisində tez xarab olan müxtəlif ərzaqlar saxlayırdılar.

Son vaxtların məlumatlarına görə Orta Asiyada (çiriş növlərinin ən bol olan yeri) çirişdən «eremuran» adlı maddə alınmışdır. Həmin maddə ilə hopdurulmuş polietilen örtük tərəvəzi 6 ay müddətində tər saxlamaq qabiliyyətinə malikdir.

Çirişin bu xüsusiyyətindən istifadə edən Azərbaycan xalqı kərə yağını, südü, əti, tərəvəzi saxlamaq üçün müxtəlif qablar hazırlayırdılar.

Səriştəsi olan qadın və kişilər kətandan (xırda deşikli kisə materialı) kuzə, bardaq (cürdək), sərnic, parç və s. formalı əşyalar tikib hazırlayır, sonra onun içərisini narın qumla doldururdular. Çirişin yarpaqları və köklərinin unundan qatı horra hazırlayır, qumla doldurulmuş qabların xarici tərəfindən bu horra ilə suvayırdılar (yaxırdılar). Suvanmış qabı günün qabağında yaxşı-yaxşı qurudandan sonra onun içərisindəki qumu boşaldır, hazırlanmış qabda tez xarab olan istənilən ərzağı uzun müddət saxlayırdılar.